# Humanitar missiyamız davamlıdır.



Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı dünya ölkələrində mövcud olan humanitar şəbəkəsi vasitəsilə hər yerdə öz xeyirxah missiyyasını həyata keçirən və müxtəlif fəlakətlərdən zərər çəkmiş insanların üzləşdikləri çətinliklərin aradan qaldırılmasına xidmət edən qlobal bir təşkilatdır. Beynəlxalq humanitar hərəkatın Azərbaycanda olan vahid təmsilçisi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əsas vəzifəsi dövlətəköməkçi və yardımçı rolunu oynamaqdan ibarətdir. Bu çətin və eyni zamanda şərəfli bir missiyanın öhdəsindən gəlmək yola saldığımız ildə qarşımızda duran əsas vəzifələrdən idi.

Yola saldığımız 2020 ci il nə qədər çətin, məşəqqətli olsa da humanitar fəaliyyətlərimizdə, Qızıl Aypara Cəmiyyətinin dövlət qurumları ilə imzaladığı əməkdaşlıq müqavilələri çərçivəsində, həyata keçirilən bütün fəaliyyətlərin məhsuldar olduğunu qeyd edə bilərik. 2016-2020 Strateji İnkişaf Planına uyğun olaraq həyata keçirilən fəaliyyətlərimiz barədə qısa məlumat verərək qeyd etmək istərdim ki, Milli Cəmiyyət üzərinə düşən əsas vəzifələrin öhdəsindən məsuliyyətlə gəlmişdir. Silahlı qarşıdurmalar, siyasi böhranlar, dünyada baş verən pandemiyalar və kütləvi xəstəliklər, təbii fəlakətlərin yaratdığı arzuolunmaz fəsadlar Milli Cəmiyyətlər qarşısında böyük bir öhdəliyin yaranmasına səbəb olmuşdur. Qeyd etdiyim səbəblər üzündən yaranmış humanitar fəlakətlər Beynəlxalq təşkilatlar, xüsusilə bu sahədə Beynəlxalq Hərəkat öz üzərinə düşən missiyanı daha da çətinləşdirmiş, Milli Cəmiyyətlərin rolunu aktuallaşdırmış, qarşılıqlı əməkdaşlıq əlaqələrin daha da genişlənməsinə zəmin yaratmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də bu sahənin inkişafına öz töhfəsini verməklə prioritet problemlərə biganə qalmayaraq öz səylərimizi göstərmişdir. Belə ki, yola saldığımız ilin ən aktual problemlərindən biri COVİD-19 pandemiyasının sürətlə yayılması idi. Məhz ilin əvvəlindən Mart ayından başlayaraq Cəmiyyət öz könüllü və işçi heyəti ilə daxili imkanlarını səfərbər edərək pandemiyaya qarşı fəaliyyətlər həyata keçirmişdir. Konkret misallar vermək istərdim ki, edərək çap etdiyimiz broşurlar, bukletlər, təbliğat materialları avtobus dayanacaqlarında, metro qarşısında əhalinin sıx olduğu yerlərdə paylanma kompaniyasına start verildi. COVİD 19 pandemiyasının əsas tələblərindən biri 65-dən yuxarı insanların evdən çıxmama kimi qaydalarına dəstək olaraq bütün respublika üzrə sosial vəziyyəti zəif olan insanların evlərinə ərzaq, yuyucu dəstlər, sanitar qutular paylanma kompaniyasına start verildi. Məhz məqsədyönlü, effektiv işimiz donorlar tərəfindən yüksək qiymətləndirildi. Belə ki, COVİD-19-la mübarizə çərçivəsində olan kompaniyamıza ənənəvi partnyorlarımız BQX və QACFederasiyası, BQXK-indən başqa Ümumdünya Səhiyyə Təşkilatı, Pepsi Cola, Procter Gamble, TİKA, Avropa Birliyi, Türk Qızıl Ayı, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq İnkişafa Yardım Agentliyi kimi təşkilatlar qoşulmağa başladılar.

Keçən ilin fəalıyyətlərimizə diqqətlə nəzər salsaq görərik ki, hazırlanmış mobil könüllü dəstələr kənd icmalarında İqtisadi Təhlükəsizlik layihəsi çərçivəsində ehtiyaclı insanlara əvəzsiz xidmətlər göstərdilər. Məhz Sentyabr 27-dən Noyabrın 10-na qədər silahlı münaqişə bölgəsində Vətənmüharibəsindən əziyyət çəkən sivil insanlara zəruri ilk yardımlar Mobil Könüllü dəstə üzvləri tərəfindən fədakarcasına həyata keçirildi. Misal olaraq Tərtər şəhərinin aramsız olaraq ağır artilerriya atəşindən müvəqqəti olaraq Bərdədə məskunlaşan əhalinin qeydiyyata alınması, həmçinin sığınacaqlarda qorunan insanlara ərzaq, su və digər vacib ehtiyaclarınpaylanmasında işçi və könüllü heyətimiz əsl fədakarlıq nümayiş etdirdilər. Bizimlə çiyin-çiyinə Sentyabrdan günümüzə qədər çalışan Türk Qızıl Ayının da müvafiq heyətinin fəaliyyətlərini qeyd etməliyəm.

Cəmiyyətimizin eytiyaclı vətəndaşlarımıza etdikləri humanitar yardımların bölgü vəpaylanışında fəaliyyətimizin tərkib hissəsi kimi aktiv və çevik şəkildə bizimlə birlikdə fəaliyyət göstərirlər. Hal-hazırda silahlı münaqişədən əziyyət çəkən vətəndaşlarımıza humanitar yardımların çevik çatdırılması mobil şəkildə həyata keçirilir. Böyük təəssüf hissi ilə qeyd etməliyəm ki, Bərdədədaparılan humanitar yardımlar zamanı könüllümüz Mustafayev Məhərrəm Ənvər oğlu həyatını faciəli şəkildə itirdi və iki nəfər xəsarət aldı. Bütün humanitar beynəlxalq təşkilatlar bu arzuolunmaz hadisəyə öz lazımi qiymətini verərək bizimlə həmrəy oldular. Biz bir daha Milli Cəmiyyətin əsasfəaliyyət məqsədi dövlətə köməkçi və yardımçı rolundan ibarət öhdəliyimizişərəflə yerinə yetirməkdəyik.

Fürsətdən istifadə edərək, Milli Cəmiyyətin humanitar fəaliyyətlərin həyata keçirilməsində dəstək olmuş bütün insanlara, xüsusilə əsl fədakarlıq, qəhrəmanlıq nümayiş etdirən könüllülərimizə, işçi heyətimizə, yerli və beynəlxalq təşkilatlara öz minnətdarlığımı bildirirəm. Əminəm ki, humanitar fəaliyyətimiz davamlı olacaq, yerli və beynəlxalq səviyyədə dəstəklənəcəkdir.

## 2020-ci il illik Hesabatı

### Sağlamlıq və qayğı Şöbəsi



| MƏQSƏD | | |
|---|---|---|
| ***Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat yaşaması naminə bilik və bacarıqlarını artırmaq.*** | | |
| | **FƏALİYYƏT** | **NƏTİCƏ** |
| **1.** | Koronavirus (COVİD-19) infeksiyasının Azərbaycana təsirinin azaldılması məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) tərəfindən pandemiyanın davam etdiyi 10 ay ərzində müvafiq tədbirlər həyata keçirilib. Bu tədbirlər AzQAC-ın öz imkanları, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı daxilində və yerli donorların təqdim etdiyi maliyyə və texniki dəstəyi hesabına reallaşdırılmış. Beləliklə **34,000-dən** çox ailəyə, o cümlədən tənha qocalar, əlil insanlar, çoxuşaqlı ailələr, migrant ailələri (**170,000 nəfərdən artıq insana**) ümumi dəyəri 1,071,437 AzN məbləğində ərzaq və qeyri ərzaq/gigiyenik məhsullar ilə humanitar dəstək verilmişdir; | • AzQAC-nin **75** şəhər və rayon bölmələrinin **2,074** işçisi, könüllüsü və icmalara əsaslanan könüllüləri Riskli Kommunikasiya, COVİD-19 infeksiyası haqqında, Su, Sanitariya və Qiqiyenik normalara riayət olunma qaydaları, COVİD-19-la bağlı sərt karantin dövründə düzgün davranış qaydaları, Sağlam Həyat tərzi, İlkin Psixoloji və Psixososioloji Dəstək və s. mövzularda təlimatlandırılmış və müxtəlif fəaliyyərlərə cəlb edilmişdir;<br>• Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) Qlobal Fövqəladə Müraciətindən, donor təşkilatların ayrılan maliyyə və texniki dəstəyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti təxminən **21,500** nəfərə (**4,300** həssas ailə) zəruri ərzaq və qeyri-ərzaq məhsulları/gigiyenik ləvazimatlar təqdim edilmişdir. Eyni zamanda COVİD-19-la mübarizəyə dair **2,469,500** müxtəlif maarifləndirici materiallar çap olunmuş və AzQAC-ın əməkdaşları və könüllüləri vasitəsilə avtobus dayanacaqlarında, marketlərdə, kiçik ticarət obyektlərində əhaliyə paylanılmış və bu tədbirlər davam etməkdədir; |

| | | |
|---|---|---|
| | | • UNİCEF Azərbaycandakı Nümayəndəliyi, İctimayii Səhiyyə və İslahatlar Mərkəzi AzQAC-a **48,000-ə** yaxın maarifləndirici materialları paylanış için təqdim etmişdir. UNİCEF-in və AzQAC-ın birgə əməkdaşlıq layihəsi çərçivəsində **600** sosial-iqtisadi çəhətdən həssas ailə (3,000 nəfər) gigiyenik bağlamaları, psixososial dəstək, **49,690** insan maarifləndirici mesajlar (əl yuma və gigiyenik qaydaları, düzgün maskaların taxılması, məsafənin qorulması, karantin rejiminə riayət edilməsi və sıxlıq olan yerlərdə toplanmaması) və **347,400** insan dolayı 7 növ maarifləndirici materiallarla təmin olunmuşdur. AzQAC-nin **322** əməkdaşı və könüllüsü səxsi qoruyucu vasitələrlə (PPE) təmin edilmişdir. Layihənin müsbət nəticəsini öyrənmək məqsədilə **1,108** insan arasında sorğu keçirilmiş və hesabat hazırlanmışdır.<br>• Avropa Birliyinin maliyyə dəstəyi ilə birgə layihə həyata keçirilir və bu layihə çərçivəsində COVİD-19 mövzusu çərçivəsində 5,000 lifletlər və 5,000 posterlər hazırlanmış və 600 könüllünün vasitəsi ilə yerlərdə paylanılmışdır. Eyni zamanda yerlərdə psixososiloji dəstək üzrə gruplar yaradılmışdır (hər qrupda 20 nəfərdən ibarət, ümumi x könüllü). Bu iş hələdə davam edir və növbəti addım 6 mövzu ətrafında maariflənidirici videoların buraxılışıdır.<br>• Baş ofisdə yaradılan "Qaynar xətt" vasitəsilə ümumilikdə **70,000** çox zəng qəbul edilmişdir. Zənglər Azərbaycanın şəhərlərini və müxtəlif bölgələrini əhatə etməklə, COVİD-19-la bağlı mesajların ötürülməsi və psixoloji dəstəyin göstərilməsi üçün istifadə edilmişdir.<br>• "Heydər Əliyev Fondunun təşəbbüsünə qoşularaq COVİD-19 pandemiyası müddətində AzQAC-ın **255** nəfər yerli bölmələrinin işçi heyəti və könüllüləri qanvermə aksiyasında iştirak etmişlər. |

| | | |
|---|---|---|
| **2.** | Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya), Azərbaycan Qızıl Aypara Cəmyyəti (AzQAC) və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) "**Yerli icmaların fövqəladə hallar zamanı sağlamlıq üzrə dayanıqlılığının gücləndirilməsi**" istiqamətində həyata keçirilmiş yeni layihəyənin birinci mərhələsi başa çatdırılmışdır. | Layihə çərçivəsində 8 regionun əhatə olunmuş, 64 AzQAC rayon bölmələrinin və 160 icmaya əsaslanan könüllüləri təlimatlandırılışdır. Eyni zamanda təlim keçmiş könüllülər tərəfindən icma üzvləri arasında maarifləndirici tədbirlərin təşkil olunmuşdur.<br>**Fəaliyyətlər:**<br>- Gəncə və Mingəçevir, Lənkəran və Sabirabad bölgəsindən olan heyət və könüllülər arasında epidemiya nəzarəti və Pandemiya / Əl Yuma / PSS üzrə təlim. Cəmi 50 nəfər təlimə qatıldı.<br>- Gəncə, Mingəçevir, Şəki, Qax, Sabirabad, Lənkəran işçiləri və rayon bölmələri könüllüləri və icmaya əsaslanan könüllülər İlk Yardım üzrə təlimlər. Ümumilikdə 102 nəfər təlimə canlı qatıldı.<br>-35 yerli icmanı təmsil edən 30.123 insan birbaşa və 133.280 insan dolayı yolla COVID-19, Psixoloji İlk Yardım, Su, Kanalizasiya və Gigiyena təşviqi (WASH) və İlk Yardım (FA) və Kütləvi Təsadüfi İdarəetmə mövzuları ilə əhatə edilmişdir.<br>-6-7 mövzuda prezentasiyalar hazırlanmış, bir sıra təlim materialları tərcümə edilmiş və 8 hədəf olan rayonların işçi və könüllülərinə təqdim edilmişdır.<br>- COVID-19 bağlı vərəqələr, broşurlar, posterlər - hamısı birlikdə 8 yerli rayon bölməsi üçün 8 növ material 234,248 insan arasında paylanılmışdır. Mövzular: "İstilik stresi və COVID-19 riski ən çox kimə qarşıdır", "COVID-19'un qarşısının alınması üçün 10 addım", "Tibbi maskadan necə düzgün istifadə etməli", 'COVID-19 necə yayılır', 'COVID- 19: evə gəldikdə nə etməli ',' Özünüzü və başqalarını xəstələnməkdən və yoluxmaqdan qoruyun ', "COVID-19 yayılması zamanı təhdidlə necə mübarizə edə bilərsiniz".<br>-Xüsusilə yaşlı insanlara, xroniki xəstəliklərə tutulmuş insanlara qarşı İstilikdən qorunmaq üçün 1,280 flayerlərin paylanılması; Qızılca, Zob, Hepatit mövzularında 3,840 flayerlərin paylanılması. İSİM tərəfindən hazırlanan 400 Ürək-damar xəstəlikləri və TB ilə əlaqəli broşurların paylanılması. |
| **3.** | Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya) və Azərbaycan Qızıl Aypara Cəmyyətinin (AzQAC) birgə əməkdaşlığı və Norvec Qızıl Xaç Cəmiyyətinin maliyyə dəstəyi ilə "Ümumdünya Vərəm Günün Qeyd edilməsi" layihəsi həyata | **-Çatışanların sayı və faydalananlar kateqoriyasının qısa təsviri (Yaş, cins üzrə bölgü):** bilavasitə 62 vərəm xəstəsi (sağalmış və ya müalicə müddətində) və onların ailə üzvləri**.** Hökumət strukturları, sağlamlıq idarələri, vərəm koalisiyasının üzvləri və əhali dolayı yolla. |

| | | |
|---|---|---|
| | keçirilmişdir. | **-İşə cəlb olunan işçilərin və könüllülərin sayı:** Baş Qərargahdan 3 işçi, Bakı, Sumqayıt şəhərlərindən 15-ə yaxın könüllü və ümumi 350-dən çox işçi və könüllü istehsal olunmuş materialların paylanmasında iştirak üçün.<br><br>**Fəaliyyətlər:**<br>**1.** Həm poliklinika, həm də stasionar şəraitdə müalicə olunan **62** vərəm xəstəsi üçün qida paketlərinin alınması və toplanması. Yemək paketlərinin tərkibinə çay, makaron, şəkər, qatılaşdırılmış süd, düyü, qarabaşaq yarması, yağ və toyuq, həmçinin sabun və təmizləyici məhsullar / dezinfeksiya edicilər daxil edilmişdir.<br>**2.** 20.03.20-05.05.2020 ərəfəsində Binəqədi rayonu 10 N-li Vərəm klinikası, 1 saylı Yasamal Vərəm rayon klinikası, Bakıda, Mərdəkanda və Sumqayıtda yerləşən xəstəxanalarda xəstələr və tibb işçiləri ilə görüşlər keçirildi<br>**3.** Azərbaycan Səhiyyə Nazirliyi yanında Beynəlxalq Proqramlar üzrə Koordinasiya Şurasının dəstəyi ilə İİV, Vərəm və Malyariya ilə Mübarizə Qlobal Fondunun dəstəyi ilə 5 seminar və görüşlər keçirilmişdir.<br>**4.** Bütün dövr ərzində (mart-may) AzQAC könüllüləri MC tərəfindən alınmış və hazırlanmış humanitar yardımları və maarifləndirmə məlumatlarını, ÜST, Səhiyyə Nazirliyi yanında İSİM-in hazırladığı Vərəm və COVID-19 materiallarının paylamışdır. Uşaqlar və gənclər üçün 11,058 "Sağlamlıq Ölkəsinin Hekayəsi" broşuraları, Vərəm / COVID-19 haqqında broşuralar Bakı, Sumqayıt və bölgələrdə yayılmışdır. |
| **4.** | Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya) və Azərbaycan Qızıl Aypara Cəmyyətinin (AzQAC) birgə əməkdaşlığı, Hollan dövlətinin maliyyə dəstəyi və Global PITCH programı çərçivəsində “Ümumdünya QİCS Günün Qeyd edilməsi” layihəsi həyata keçirilmişdir. | -60 nəfər İİV-lə yaşayan insanlara və onların ailə üzvlərinə humanitar yardım məqsədilə ərzaq bağlamaları hazırlanmış və paylanılmışdır;<br>- Sumqayıt şəhər bölməsinin vasitəsilə yerli icra hakimiyyəti orqanlarının, səhiyyə nümayəndələrinin iştirakı ilə kütləvi tədbir və rəsmi toplantı keçirilmişdir. Tədbirdə İİV/QİCS mövzusunda məlumatlar təqdim edilmişdir.<br><br>-AzQAC Regional Mərkəzlər və Rayon Bölmələri vasitələrilə ölkədə həyata keçirilən sil-silə tədbirlərə cəlb olunur, maarifləndirmə kompaniyalarda fəal iştirak edirlər. Belə ki, tibb işçiləri üçün onlayn seminar təşkil edilmişdir. Seminarda Bakı, Sumqayıt, Gəncə və digər şəhər və rayonlardan pediatr, neonatoloq, ailə həkimləri (70 nəfər) iştirak etmişlər. İlin sonunadək onlayn |

| | | |
|---|---|---|
| | | şəkildə seminarların davam edilməsi nəzərdə tutulur. |
| **5** | Qan donorluğuna dair fəaliyyətlər | Heydər Əliyev Fondunun təşəbbüsünə qoşularaq AzQAC-ın yerli şöbələrinin 392 əməkdaşı və könüllüləri COVID-19 pandemiyası zamanı qanvermə kampaniyalarında iştirak etdilər. |

## Silahlara qarşı Mübarizə proqramı

| **MƏQSƏD** | | |
|---|---|---|
| ***2005-ci ildən başlayaraq Azərbaycan Respublikasının qərb bölgəsində yerləşən rayonların, vaxtilə qızğın döyüş meydanı olmuş indi isə soydaşlarımızın məskunlaşdığı ərazilərində (kəndlərdə, icmalarda) uşaqlarımövcud olan mina və müharibənin partlayıcı qalıqları (MPQ) ilə rastlaşmarisklərindən qorumaq məqsədini daşıyan.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| 1. | Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Litva Respublikasının Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində Qazax rayonunun 2-ci Şıxlı kəndinin Valeh Musayev adına kənd məktəbində "Mina Risklərinin Azaldılması" strategiyasına aid ənənəvi layihəsi olan "TəhlükəsizOyun Meydançası tikilmişdir.<br>Açılış mərasimi təşkil olunmuşdur. | Nəticə etibari ilə kəntdə yaşayanuşaqları Mina təhlükəsindən qorumaq əsas məqsəddir.<br>Kəntdə **600-dən** yuxarı uşaqları mina təhlukəsindən qorumuş olduq. |
| 2 | Azərbaycan Qızıl Aypara Cəmiyyətinin rayon bölmələri tərəfindən respublika üzrə minahadisəsi baş vermişdir mina qurbanları ilə görüşərək onlarla qiymətləndirmə işi apararaq AzQAC-nin Miqrasiya şöbəsinə təqdim olunmuşdur. | 2020-ci il ərzində həm hərbi vəziyyətlə əlaqədar **20 dən** çox minahadisəsi baş vermişdir. |

**Miqrasiya şöbəsi**



| | | |
|---|---|---|
| **MƏQSƏD** | | |
| **Ölkəyə təşrif buyuran miqrantların, həmçinin, qaçqın və məcburi köçkünlərin normal şəraitdə yaşaması üçün onların bütün yerli və beynəlxalq hüquqlarla təmin olunmasında vəkillik etmək, ölkədə yaşayan miqrantlara daim diqqət və qayğı göstərərək əsas ehtiyaclarını öyrənmək və dəstək olmaq.** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| 1. | Yanvar-dekabr 2020-ci il tarixindən Ölkədəpandemiya ilə əlaqədar olaraq ölkəmizdə yaşayan zavallı miqrant quruplarına marifləndirmə sesiyalar həyata keçrilmişdir. Pandemiya ilə əlaqədar olaraq ailələrə hər cür gigiyenik vasitələr, ərzaq yardımları paylanılmışdır. | **200** miqrant ailələri marifləndirmə sesiyalarından və edilən yardımlardan bəhrələnmişdir. |
| 2. | Oktyabr ayında Azərbaycan dili kursunun 8-ci açılışı tədbiri təşkil olmuşdur. | Açılışda **16** nəfər miqrant AyparaCəmiyyəti rəhbərliyi iştirak etmiş, çay süfrəsi təşkil edilmiş və şagirdlərə dərs ləvazimatı paylanmışdır. |
| 3. | Yanvar-dekabr aylarında fərdi dəstəkçilər tərəfindən qurban əti paylanmışdır. | **40** ailə bu fəaliyyətdən bəhrələnmişdır. |
| 4. | Aprel ayında Qaçqın Qadın və Gənclər Mərkəzində Uşaqlarla Sağlam həyat tərzi “ mövzusunda layihə koordinatoru tərəfindənsessiya keçirilmişdir. | **48** miqrant bu təlimdən bəhrələnmişdir. |
| 5. | Yanvar-Dekabr 2020-ci il ərzində Miqrasiyavə Yeni illə bağlı müxtəlif mövzularda | Əldə olunan məlumat və təcrübə yerlı şöbələrin apardığı işlərdə istifadə edilmişdir və şöbənin işinin daha da səmərəli olmasındatədbiq olmunuşdur. |

| | | |
|---|---|---|
| | keçrilən yığıncaq və tədbirlərdə AzQAC-ninMiqrasiya şöbəsinin mütammadi iştirakı. (60 Video konfırans iştirak etmişdir) | |
| 6. | Ramazan bayramı münasibətilə ərzaqyardımı təşkil edilmişdir. | **22** miqrant ailəsinə ərzaq bağlaması verilmişdir. |
| 7. | 2020-ci ilin yanvar-dekabr aylarında Bayramlar ərəfəsində miqrantlara konsertə, teatra və tədbirlərə biletlər paylanmışdır | Miqrant ailələrinə **57** biletpaylanmışdır. |
| 8. | İl ərzində mütəmadi olaraq ehtiyaclı olanlarapal-paltar, ev əşyaları, yataq dəstləri, parçalar ərzaq yardımı paylanmışdır.(fərdi yardımlar,) | **199** miqrant ailələrinə ərzaq, geyim əşyaları, gigiyenik dəstlər, döşək, ədyal, mətbəxt dəsdi və ehtiyaca uyğun dərman vasitələri verilmişdir. Yardım edilən ailələr Əfqanistan, Pakistan, Maldova Suriya.<br><br>**24** ehtiyacı olan yerli ailəyə ərzaq yardımı paylanılmışdır. |
| 9. | Dövlət Miqrasiya Xidməti yanında içtimai şuranın 20-də çox video konfransı keçrilmişdir konfransda AzQAC-in Miqrasiya şöbəsinin müdiri iştirak etmişdir | Pandemiya, miqrasiya ilə əlaqədar məsələləri müzakirə olunmuşdur |
| 10. | İl ərzində İran klinikasında xəstə miqrantların müayinəsi təşkil edilmişdir | **7** xəstə və imkansız miqrant üçünpulsuz müayinə kartı verilmişdir. |
| 11. | Sentyabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) Miqrasiya Şöbəsinin müdiri Məmməd Kətanov, Miqrasiya şöbəsinin təhsil üzrə əməkdaşı, miqrantlara Azərbaycan dili müəllimi Sona Hacıyeva,Ictimai layihələr koordinatoru Mətanət Qaraxanova Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) QQGM-də işgüzar video konfrans təşkil olunmuşdur. | Görüşün məqsədi Azərbaycan dili kursları barədə yeniliklərin və nəticələrin müzakirəsi və QQGM-in AzQAC-la gələcəkdə müştərək əməkdaşlığının daha da inkişaf etdirilməsi yollarında mütəmadi dəstək imkanlarını müzakirə etmək, ortaya çıxan anlaşılmazlıqların aradan qaldırılması yolunda qüvvələrin və imkanların səfərbər edilməsi idi. |
| 12 | Iyul ayının 10-15 arası ötən il üçün Azərbaycan dili kursunda iştirak edən şagirdlərin 7-ci tədris ilinin bağlanış tədbirikeçirilmişdir. | **55** nəfərə 1 illik tədris üçün sertifikatlar verilmiş və çay süfrəsi təşkil edilmişdir. Tədbirdə 60 miqrant, AzQAC-in Baş ofisində rəhbərliyin iştirakı ilə təşkil olunmuşdur. |




**COVİD 19 və Vətən müharibəsi zamanı fəaliyyətləri barədə qısa arayış**

Beynəlxalq Qızıl xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının dəstəyi ilə ümumi olaraq 88 000 nəfəri əhatə etmişdir. Ümumi büdcəsi 474 896 isveçrə frankı ( 883 306 ) olmaqla
BMT-nin İnkişafa yardım Agentliyi tərəfindən 1 290 nəfərə 73 645.15 azn olmaqla və maddi tekniki bazanın gücləndirilməsinə
BMT-nin Qacqınlar üzrə Ali Komissarlığının dəstəyi ilə 2100 ailəyə (10 500 nəfərə) dəstək göstərilmişdir
Avropa Birliyi tərəfindən 520,000 nəfərə 95 970 azn olmaqla
Pepsi Cola tərəfindən 1282 nəfərə ümumi dəyəri 17 104 manat olmaqla COVİD 19 la bağlı gigiyenik dəstlər, sanitayzerlər, tibbi qoruyucu vasitələr paylanılmışdır.
Cəmi Milli Cəmiyyət tərəfindən COVİD 19 la mübarizə çərçivəsində 97 772 nəfəri əhatə edən ümumi dəyəri 1 070 025 azn maliyyə olmaqla ehtiyaclı qruplara ərzaq dəstləri ,gigiyenik dəstlər, sanitayzerlər, tibbi qoruyucu vasitələr paylanmışdır. Hal hazırda fəaliyyətlər davam etməkdədir.

**Vətən müharibəsi zamanı**

Beynəlxalq Qızıl xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası tərəfindən dəstəklənən humanitar yardım alanların sayı 15 160 nəfəri əhatə etmişdir. Ümumi olaraq 326 000 isveçrə frankı ( 606 360 azn ) təşkil etmişdir.
Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən 23 000 nəfərə 510 000 isveçrə frankı (947 000 Azn) olmaqla, müvafiq zərurui ərzaq və qeyri ərzaq malları çatdırılmışdır.
TİKA Türkiyə Beynəlxalq İnkişafa yardım Agentliyi 53 000 nəfərə ilk yardım çantası,
Türk Kızıl Ayı tərəfindən 55 000 nəfərə ( dəyəri 1 622 872 azn olmaqla) mal şəkilində çatdırlması şərtilə paylanmılmışdır. Sərf olunan vəsait Türk Qızıl Ayı tərfindən həyata keçirilmişdir.
Cəmi Milli Cəmiyyət tərəfindən 146 000 nəfəri əhatə edən (1 553 360 azn maliyyə olmaqla) ehtiyaclı qruplara ərzaq dəstləri , mətbəx ləvazimatları, yataq dəstləri, mebel, qış geyimləri, gigiyenik dəstlər, sanitayzerlər, tibbi qoruyucu vasitələr paylanmışdır. Hal hazırda fəaliyyətlər davam etməkdədir.

## Regional Mərkəz və Yerli bölmələrlə iş şöbəsi

<table>
<tr><th colspan="3">MƏQSƏD</th></tr>
<tr><td colspan="3">AzQAC-nin Komitələrinin, Regional Mərkəzlərinin,yerli bölmə və ilk təşkilatlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan humanitar fəaliyyətləri həyata keçirmək məqsədilə Milli Cəmiyyəti milli və beynəlxalq müstəvidə insanlara dəstək olan güclü humanitar təşkilata çevirmək.</td></tr>
<tr><th colspan="2">FƏALİYYƏT</th><th>NƏTİCƏ</th></tr>
<tr><td>1.</td><td>▪Tədbirlər təşkil olunmuşdur.</td><td>▬2020-cu ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin regional mərkəz və yerli bölmələrləiş şöbəsi rayon bölmələri ilə Təhsil Nazirliyi və Səhiyyə Nazirliyi ilə birgə orta məktəblərdə tədbirlər təşkil olunmuşdur. COVID-19 pandemiyası ilə əlaqədar Bakı Regional Mərkəzin.</td></tr>
</table>

| | | |
|---|---|---|
| | | bütün yerli bölmələri, həmçinin 35 digər rayon bölmələrimiz bir sıra tədbirlər keçirtmişlər və bu tədbirlərdə Regional Mərkəz və yerli bölmələrlə iş şöbəsinin müdiri Qəniyev Nicatda iştirak etmişdir. Tədbirlər sırasında ərzaq, gigiyenik məhsullar paylanmışdır. Ölkəmizdə cərəyan edən 27 Sentybar - 10 Noyabr müharibə dövründə rayon bölmələrimiz mülki əhalini ərzaq, isti paltarlar və digər zərurət yaranan məsələlərlə bağlı təmin etmişlər.<br>▪2020-ci il 5 Dekabr tarixində Naftalan, Yevlax və Bərdə şəhərlərində Cəmiyyətin Prezidenti Novruz Aslanovun rəhbərliyi ilə müşavirə keçirildi. Müşavirə zamanı əhaliyinin ərzaq və digər ehtiyaclarının qarçılanmasına dair müvafiq göstərişlər verildi. Terror aktı nəticəsində həyatını itirmiş Bərdə RB-nin könüllüsü Mustafayev Məhərrəmin ailəsinə baş sağlığı verilmiş ailəsinə maddi yardım olunmuşdur. |
| **2.** | ▪Təşkilati məsələlərinhəlli. | ▪Rəhbərlik tərəfindən verilən tapşırıqlar vaxtı vaxtında yerinə yetirlmişdir.Eyni zamanda təşkilati sənədlər vaxtı vaxtında rayon bölmələrinə çatdırılmışdır. |
| **3.** | ▪Regional Mərkəzlərdə zona müşavirəsi keçirilmişdir. | ▪Mart və Avqust aylarında Sumqayıt və Bakı Regional Mərkəzlərində zona müşavirəsi keçirilmişdir.Müşavirədə koordinator,rayon və şəhər bölmə sədrləri iştirak etmişlər.Əsas mövzu üzvlərin sayının artırılması,bölmələrə yardım üçün müraciətlərin operativ cavablandırılması,yerli səviyyədə humanitar aksiyaların keçirilməsi tövsiyə olunmuşdur. |
| **4.** | ▪ Hər rübün sonunda Bakıvə Sumqayıt Regional Mərkəzlərdə rübün yekununa dair görüşlər. | ▪ Hər rübün sonunda Sumqayıt və Bakı Regional Mərkəzlərində sədrlərin 3 ay ərzində gördükləri işlərdəndanışılmış,tapşırıqlar verilmiş və problemləri dinlənilimişdir. |

| | | |
|---|---|---|
| **5.** | ▪ Regional Mərkəz Koordinatorlarıilə görüşün keçirilməsi. | ▪ Təşkilat idarəsi rüblər üzrə Regional Mərkəz Koordinatorları ilə mütəmadi olaraq görüşlər keçirmişdir.Bu görüşlərdə koordinatorların bölmələrdə görüşü,hər hansı bölmələrdə olan problemlər,icra orqanları ilə münasibətlərinin hansı səviyyədə olmasından danışılmışdır.Həmçinin gündəlik təşkilati məsələləri diqqət mərkəzində saxlamaq bildirilmişdir. |
| **6.** | ▪ Yerli İcra Hakimiyyəti orqanlarına müvafiq məktublar və müraciətlər göndərilmişdir. | ▪İcra Hakimiyyəti orqanlarına 50-dən artıq məktub göndərilmişdir.Məktubda üzvlük haqqının yığılması və ofis yerinin ayrılması barədə müraciət edilmişdir. |
| **7.** | ▪Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı nümayəndəliyitərəfindən yönləndirilən məktubların icrası. | ▪Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakı nümayəndəliyi tərəfindən 10-dan çox məktub daxil olmuşdur.Məktub cəzaçəkmə müəssisələrində olan şəxsin ailə üzvləri tərəfindən göndərilmişdir.Rayon bölmə sədrlərinə bu barədə tapşırıqverilmiş,sədrlər tərəfindən araşdırılmış və lazımi tədbirlər görülmüşdür. |
| **8.** | ▪Rayon və şəhər bölmələritərəfindən təşkil olunmuş humanitar aksiyalarda iştirak. | ▪Novruz bayramı,Dünya azərbaycanlılarının həmrəylik günü,ahıllar günü münasibətilə keçirilmiş bayramlarda Bakı Regional Mərkəzinin bir çox rayon bölmələrində,həmçinin Sumqayıt şəhər bölməsində keçirilmiş tədbirlərdə verilmiş bayram sovqatlarının paylanılmasında iştirak edilmişdir |
| **9.** | ▪Xarici qonaqlar ilə işlərinin təşkili. | ▪2020-cu ildə Beynəlxalq Qızıl Xaç komitəsi tərəfindən Qızıl Aypara Cəmiyyətinin RB-nin maddi texniki bazasının gücləndirilməsi məqsədilə cəbhayanı bölgələrə 10 ədəd maşın verilmişdir |
| **10** | ▪İlin yekunmüşavirəsi. | ▪Dekabr ayında Bakıda və Sumqayıtda regional mərkəzlərinsədrləri ilə birlikdə ilin yekunlarına dair müşavirə keçirilib. |



## İnformasiya və İctimaiyyətlə Əlaqələr şöbəsi

| MƏQSƏD | | |
|---|---|---|
| **Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında məlumatları KİV və ictimaiyyət arasında daha effektiv yaymaq, digər Milli Cəmiyyətlərlə əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmaq.** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| 1. | AzQAC-ın fəaliyyətlərini əks etdirən 521 məqalə Cəmiyyətin rəsmi internet səhifəsində yerləşdirilmişdir. | İstər yerli istərsə də beynəlxalq səviyyədə AzQAC-ın reytinqi daha da yüksəlmiş, əməkdaşlıq təklifləri artmışdır. |
| 2. | Qızıl Xaç, Qızıl Aypara emblemlərindən istifadə qaydalarına nəzarət edilmiş, emblemlərdən sui-istifadə qaydalarına riayət edilməsinə nəzarət edilmişdir. | 2020-ci il ərzində emblemlərdən sui-istifadə hallarına rast gəlinməmişdir. |
| 3. | BQXK-nın Azərbaycandakı nümayəndəliyinin İctimaiyyətlə əlaqələr və Əməkdaşlıq şöbələri ilə görüşlər təşkil edilmişdir. | Yayım materiallarının çapına, seminarların keçirilməsində BQXK-nın dəstəyinə nail olunmuşdur. |
| 4. | AzQAC-ın təşkil etdiyi tədbirlərin, görüşlərin və həyata keçirdiyi layihələrin KİV-lərdə işıqlandırılması üçün telekanallara fakslar göndərilmişdir. | Nəticədə telekanalların çəkiliş heyyəti və jurnalistləri Cəmiyyətin təşkil etdiyi tədbirlərdə iştirak etmiş və AzQAC-ın fəaliyyətlərini özlərinin təmsil etdikləri kanallarda işıqlandırmışlar. |
| 5. | AzQAC-ın həyata keçirdiyi layihələr, təşkilatçılıq etdiyi tədbirlər haqqında məqalələr qəzetlərdə, internet-xəbər portallarında yayımlanması üçün göndərilmişdir. | AzQAC-ın həyata keçirdiyi layihələr, təşkilatçılıq etdiyi tədbirlər haqqında məqalələr-ümumilikdə 521 məqalə Nezermedia.az, Modern.az kimi internet səhifələrində, Vışka (Вышка), Yeni Təfəkkür qəzetlərində işıqlandırılmışdır. |

**Beynəlxalq Əlaqələr şöbəsi**



| MƏQSƏD | | |
|---|---|---|
| ***1. Digər ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (BQXQACF və ya Beynəlxalq Federasiya) və müvafiq beynəlxalq təşkilatlarla mövcud əməkdaşlığın möhkəmləndirilməsi və əməkdaşlıq perspektivlərinin gücləndirilməsi, eləcə də humanitar fəaliyyətlərin həyata keçirilməsində yeni tərəfdaşlıq münasibətlərinin qurularaq əməkdaşlıq sərhədlərinin genişləndirilməsi***<br>***2. Milli Cəmiyyətin nümayəndələrinin Hərəkat-daxili və hərəkatdan kənar təşkil olunan müvafiq konfrans, tədbir, görüş, bilik və bacarıqların artırılmasına yönələn treyninq və seminarlarda iştiraklarının, eyni zamanda xarici qonaqların və mütəxəssislərin Azərbaycan QAC-nə rəsmi səfərlərinin təşkilinin təmin olunması.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | İl ərzində AzQAC-ın prezidenti Novruz Aslanov ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Elena Ajmone Sessera arasında rəsmi görüşlər keçirilmişdir. | Hər iki qurum arasında mövcud əməkdaşlıq üzrə həyata keçirilən fəaliyyətlər müzakirə edilmiş, gələcək əməkdaşlıq planları müəyyənləşdirilmiş və yeni layihələr barədə geniş fikir mübadilələri aparılmışdır. |
| **2** | İran İslam Respublikası Qızıl Aypara Cəmiyyətinin Azərbaycan Nümayəndəliyinin başçısı Səid Kənani 28 yanvar, 2020-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinə səfər etmişdir. | Az.QAC-nin Fövqalədə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Elşən Səlimzadə və Humanitar Yardım şöbəsinin müdiri Əliağa Abbasovun da iştirak etdiyi əməkdaşlığa dair görüşün əsas müzakirə mövzusu, fövqalədə hallar zamanı könüllü peşəkar insan resurslarının cəlb olunması mexanizminin təkmilləşdirilməsi, onların lazımi ləvazimatlarla təminatı, mobil konüllü dəstələr üçün seminar və treyninqlərin keçirilməsi, tənha və kimsəsiz-zavallı insanların təmənnasız tibbi müayinəsinin təşkili, respublikanın ayrı-ayrı bölgələrində səyyar təmənnasız tibbi müayinənin təşkili və s. buna bənzər fəaliyyət növlərinin təşkil edilməsi olmuşdur. |
| **3** | Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyinin əməkdaşlıq üzrə yeni nümayəndəsi Laura Ssena 4 fevral, 2020-ci il tarixində AzQAC-ın baş ofisinə səfər etmişdir. | Səfər zamanı Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin yeni əməkdaşı AzQAC-ın işçi heyətinə təqdim edilmiş, Laura Ssena daha öncə çalışdığı milli cəmiyyətlərin də təcrübəsindən istifadə edərək BHH-un və Fundamental Prinsiplərin yayımı, informasiya, miqrasiya, sağlamlıq və qayğı, gənclər və könüllülər |

| | | | |
|---|---|---|---|
| | | | sahələrində əməkdaşlığın daha da genişləndiriləcəyindən bəhs edilmişdir. Fövqəladə Mobil Könüllü Dəstələrin bilik və bacarıqlarının artırılması sahəsində daha da irəliləyişlər olacağını vurğulamışdır. |
| **4** | | 19 fevral, 2020-ci il tarixində Fransanın Azərbaycandakı səfirinin birinci müşaviri Dominik Janti Azərbaycan Qızıl Aypara Cəmiyyətinə səfər etmişdir. | AzQAC-ın prezidenti Novruz Aslanov və Fransanın Azərbaycandakı səfirinin birinci müşavini Dominik Janti arasında keçirilmiş görüş zamanı, humanitar sahədə aparılan işlərə dair hazırkı əlaqələr və gələcək perspektivlər müzakirə edilmiş və mövcud əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsinin vacibliyini vurğulanmışdır. |
| **5** | | 21 fevral, 2020-ci il tarixində Azərbaycan yanğınların fəsadlarının aradan qaldırılması üçün Avstraliyaya humanitar yardım məqsədilə AzQAC-in prezidenti və (AİDA) arasında görüş keçirilmişdir. | Avstraliya İttifaqında 2019-cu ilin sonlarından tüğyan edən irimiqyaslı meşə yanğınlarının ağır fəsadlarının aradan qaldırılmasına köməklik göstərmək məqsədilə keçirilən görüşdə, Azərbaycan Respublikasının Prezidentinin tapşırığı ilə Nazirlər Kabinetinin müvafiq Sərəncamına əsasən 50 min ABŞ dolları məbləğində humanitar yardım ayrılmışdır. Görüşdə, bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) direktoru cənab Seymur Fətəliyev maliyyə töhfəsinə dair sertifikatı Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti cənab Novruzəli Aslanova təqdim etmişdir. Sözügedən vəsait Azərbaycan Qızıl Aypara Cəmiyyəti vasitəsilə Avstraliya Qırmızı Xaç Cəmiyyətinə ianə edilmişdir. |
| **6** | | 20 fevral, 2020-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş Qərargahında AzQAC-ın prezidenti Novruz Aslanov, İcraçı Katibi Ceyhun Mirzəyev, İcraçı Katibin müavini Səbinə Məhbubi, Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndəliyinin başçısı Elena Ajmone Sessera, Əməkdaşlıq şöbəsinin əlaqələndirici şəxsi Rasim Allazov və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Qafqaz ölkələri üzrə nümayəndəliyinin başçısı Olqa Jumayevanın iştirakı ilə növbəti Qızıl Xaç və Qızıl Aypara Hərəkatdaxili üçtərəfli görüşü keçirilmişdir.. | *Görüş zamanı ölkədə və regionda mövcud vəziyyətin nəzərdən keçirilməsi*nə dair təqdimat keçirilmiş, bu və digər mövzulara münasibət və təkliflər bildirilmiş, fövqəladə hallar zamanı fəaliyyət göstərən mobil komandaların təlimatlandırılması və onların iştirakı ilə gələcək simulasiya tapşırığının təşkil olunması, planlaşdırma görüşlərinin |

| | | |
|---|---|---|
| | | aparılması, Avstraliyaya yardımın göstərilməsi, iqlim dəyişkənliyi və koronavirusa qarşı hazırlıq işlərinin aparılmasından danışılmışdır. |
| **7** | 9 aprel, 2020-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti(AzQAC) və Türkiyə Beynəlxalq İnkişaf Agentliyi (TİKA)birgə əməkdaşlıq çərçivəsində humanitar yardımlar təşkil etmişlər. | Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Türkiyə Beynəlxalq İnkişaf Agentliyi ilə birgə covid-19 ilə mübarizədə 65 yaşlı ahıl və imkanları məhdud 2000 ailəyə həm qida həmdə təmizlik bağlamaları paylanılmış, onlara karantin müddətində evdə qalmaları, gigyenik qaydalara ciddi əməl etmələri tövsiyyə olunmuşdur. |
| **8** | 2 iyun, 2020-ci il tarixində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birgə əməkdaşlıq çərçivəsində Covid-19 mübarizədə "Biz biirlikdə güclüyük" kampaniyası cərcivəsində humanitar yardımlar təşkil etmişlər. | Beynəlxalq Qızıl Xac Qızıl Aypara Cəmiyyətləri Federasiyası və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Covid-19 mübarizədə "Biz birlikdə güclüyük" kampaniyası çərcivəsində respublikanın bir sıra bölgələrində qeydiyyatda olan tənha ahıllara və çoxuşaqlı ehtiyaclı ailələrə ərzaq bağlamaları və gigienik dəstlər, habelə Covid-19 yayılması zamanı stress vəziyyətinin öhdəsindən necə gəlməli" və "Xəstələnməkdən və yoluxmadan özünüzü və digərlərini qoruyun" başlıqlı bukletlər paylanılmışdır. |
| **9** | 19 iyun, 2020-ci il tarixində vərəm və COVİD-19 pandemiyasi ilə birgə mübarizə layihəsi çərçivəsində onlayn Beynəlxalq konfrans keçirilmişdir. Konfransda Az.QAC-in "İcmaya əsaslanan sağlamlıq" proqramının kordinatoru M.Qaraxanova və Miqrasiya şöbəsinin mütəxəssisi S.Hacıyeva iştirak etmişlər. | Konfransda COVİD-19 pandemiya zamanı Moldova Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının (QHT) Milli Vərəm və İİV/QİÇS-lə mübarizə proqramlarına dəstək olmaq üçün həyata keçirdikləri müsbət təcrübələrlə tanış olmuş, QHT-lər bu çətin dövrlərdə profilaktika, müalicə və qayğı, təbliğat və ictimai monitorinqlə bağlı xüsusi fəaliyyət təcrübələrini və öyrənilmiş dərsləri bölüşmüşlər. |
| **10** | 22 iyun, 2020-ci il tarixində "Procter&Gamble" şirkəti Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birgə 30 min nəfər ehtiyac sahibinə "Ümid 2020" Gigiyena Bağlaması paylamışdır. | P&G şirkəti Azərbaycanda pandemiya ilə bağlı karantində olan şəxslərə və karantin üçün nəzərdə tutulmuş məkanlara çatdırılması üçün öz məhsullarından ayırıb, İcbari Tibbi Sığorta Agentliyinə təhvil vermişdir. Ümumilikdə, "Procter&Gamble" şirkəti Azərbaycanda COVID-19 pandemiyası əleyhinə fəaliyyəti üçün 250 min AZN dəyərində məhsul ianə etmişdir. |

| | | |
|---|---|---|
| **11** | 25 iyun, 2020-ci il tarixində ABŞ səfiri Li Litzenberger və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD) Missiya Direktoru Doktor Jay Singh, Bakıda Qızıl Aypara Anbarına baş çəkdi. | Ziyarət zamanı USAID tərəfindən maliyyələşdirilən gigiyena ləvazimatlarının paylanması üçün hazırlanmış qutular nəzərdən keçirilmişdir. Bu humanitar yardımlar Qızıl Ayparanın könüllüləri tərəfindən Bakıdakı və ölkənin digər 14 bölgəsindəki 600 ehtiyacı olan ailəyə çatdırılaraq, 3600 nəfərə kömək edilmişdir. |
| **12** | 2020-ci ilin aprel-iyun ayları ərəfəsində Azərbaycan Qızıl Aypara Cəmiyyəti UNİCEF-in və USAİD-in Azərbaycandakı Nümayəndəliyi ilə birgə əməkdaşlıq layihəsi həyata keçirilmişdir. | UNİCEF-in və USAİD-in Azərbaycandakı Nümayəndəliyi ilə birgə əməkdaşlıq layihəsi çərçivəsində, ümumilikdə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 22 şəhər və rayon bölmələrinin vasitəsilə əhalinin sosial –iqtisadi cəhətdən həssas təbəqəsi gigiyenik bağlamalar, psixososial dəstək ilə təmin edilmişdir. Eyni zamanda, UNİCEF tərəfindən çap olunmuş çox sayda maarifləndirici materiallar əhalinin müxtəlif təbəqələri arasında paylanılmışdır. |
| **13** | 15 iyul, 2020-ci il tarixində, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Dr Novruz Aslanov və Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Nümayəndəliyinin başçısı, Elelna Ajmone Sessera arasında əməkdaşlıq görüşü keçirilmişdir. | Görüş zamanı AzQAC-ın öz missiyasına uyğun olaraq fəaliyyəti, xüsusilə fövqəladə vəziyyətlərə cavab verilməsi üçün milli cəmiyyətin mövcud potensialı və texniki imkanları barədə müzakirələr həyata keçirilmişdir. |
| **14** | 21 İyul tarixində Litva Respublikasının Azərbaycandakı səfiri Egidijius Navikas və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katib Ceyhun Mirzəyev və Silahlara qarşı mübarizə sektorunun koordintoru Məmməd Kətanovun iştirak etdiyi əməkdaşlıq görüşü keçirilmişdir. | Görüşdə AzQAC və Litva səfiriliyi arasında ikitərəfli əlaqələrin inkişaf etidirlməsi, birgə layihələrin həyata keçirilməsi, gələcək perispektivlər mövzusunda müzakirələr aparılmışdır. “Təhlükəsiz Oyun Meydançası” layihələrinin reallaşması barədə qarşılıqlı razılıq əldə edilmişdir. Sentyabr ayında növbəti dərs ilinin açılışı münasibətilə Qazax rayonunun sərhədyanı (xüsusi monitorinqdən sonra kənd seçiləcək) kəndində Təhlükəsiz Oyun Meydançasının tikilişi nəzərdə tutulmuşdur. |
| **15** | 5 avqust, 2020-ci il tarixində AzQAC-ın könüllüləri və USAİD təşkilatının iştirakı ilə birlikdə video konfrans keçirilmişdir. | Video konfransda COVİD-19 epidemiyası ilə mübarizədə əhali arasında ictimai və səhiyyə maarifi işinin aparılması, yaşı 65-dən yuxarı olan ahıllara, tənha, kimsəsiz insanlara, əhalinin ən həssas təbəqəsindən olanlara evlərində |

| | | |
|---|---|---|
| | | gündəlik qida məhsulları ilə, gigyenik və qoruyucu vasitələrlə yardım edilməsi müzakirə edilmişdir. |
| **16** | 10 avqust, 2020-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin və İran Qızıl Aypara Cəmiyyətinin Bakıdakı Klinikasının rəhbər şəxsləri və nümayəndələrinin iştirakı ilə Cəmiyyətin baş ofisində görüş keçirilmişdir. | Görüş zamanı Covid-19 pandemiyası dövründə görülən fəaliyyətlərdən və iki cəmiyyət arasında əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində görüləcək işlərdən bəhs edilmişdir. İran Qızıl Aypara Klinikası nümayəndələri Azərbaycan Qızıl Aypara Cəmiyyətinə COVİD-19 virusu mübarizədə 5000 tibbi maska ianə etmişdir. |
| **17** | 2020-ci il avqust ayının 28-də Türk Kızıl Ayının dəstəyi ilə İslam Ölkələri Qızıl Aypara Cəmiyyətlərindən seçilmiş Milli Cəmiyyətlərin iştirakı ilə video-konfrans keçirilmişdi | Konfransda əsas müzakirə edilən mövzulardan biri "COVİD-19-la mübarizədə Milli Cəmiyyətlərin köməkçi və yardımçı rolu" olmuşdur. Qeyd edilən mövzuda AzQAC-ın İcraçı katibi Ceyhun Mirzəyev çıxış edərək mart ayından etibarən AzQAC-ın həyata keçirdiyi fəaliyyətlər barədə məlumat xarakterli təqdimat etmişdir. |
| **18** | 22 sentyabr, 2020-ci il tarxində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti cənab Novruz Aslanovun Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin yeni başçısı xanım Ariane Baueri və BQXK-nın Azərbaycandakı nümayəndəliyinin keçmiş rəhbəri Elena Ajmone Sesseranı və Əməkdaşlıq üzrə məsul şəxsi Laura Sessenanı qəbul etmişdir. | Görüş zamanı, birgə əməkdaşlıq çərçivəsində görülmüş fəaliyyətlərdən bəhs edilmiş, bundan sonar da əməkdaşlıq əlaqələrinin gücləndirilməsi müzakirə edilmişdir. Razılığa əsasən 2021-ci il üzrə 7 istiqamətdəki proqramlar üzrə fəaliyyətlərin göstərilməsi və AzQAC-ın 2021-2025-ci il Yeni Strateji İnkişaf Planının hazırlanmasına da dəstək verilməsi planlaşdırılmışdır. |
| 19 | 2020-ci il oktyabr ayının 2-də Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyinin(TİKA) ofisində Azərbaycan Qızıl Aypara Cəmiyyətinə(AzQAC) döyüş bölgəsində mobil könüllü dəstələri və Cəmiyyətin cəbhəyanı yerli bölmələri üçün ilk yardım çantalarının təqdimatı keçirilmişdir. | Tədbir zamanı TİKA xətti ilə cəbhəyanı bölgə üçün nəzərdə tutulan zəruri dərman və tibbi ləvazimatlarla təchiz olunan 500 ədəd ilk yardım çantalarının cəbhə bölgəsində mobil könüllü dəstələr eləcə də, mülki əhali arasında paylanılmasının əhəmiyyəti qeyd olunmuş, habelə, TİKA ilə əməkdaşlığın yüksək səviyyədə inkişafından, pandemiya zamanı vətəndaşlarımıza humanitar yardım göstərilməsi də xüsusi olaraq vurğulanmışdır. |
| 20 | 22 oktyabr, 2020-ci il tarixində Türkiyə Qızıl Ay Cəmiyyətinin humanitar yardımları cəbhəyanı ərazilərdə münaqişədən zərərçəkən mülki əhaliyə paylanılmışdır. | Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşəbbüsü və Türkiyə Kızıl Ay Cəmiyyətinin dəstəyi ilə zərərçəkmiş mülki əhaliyə yataq və mətbəx dəstləri, çadırlar və digər |

| | | |
|---|---|---|
| | | zəruri ləvazimatlar göndərilib. Mövcud vəziyyətlə əlaqədar olaraq Türkiyə Qızıl Ay Cəmiyyətinin xətti ilə respublikamıza gətirilən humanitar yardımlar cəbhəyanı bölgələrdə zərərçəkmiş insanlara çatdırılmışdır. |
| 21 | 30 oktyabr, 2020-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov ABŞ səfirliyinin və USAİD-in (ABŞ-ın İnkişaf Agentliyi) nümayəndələrini qəbut etmişdir. | ABŞ səfirliyinin Müvəqqəti İşlər Vəkili Maykl Dikerson ( Michael Dickerson) və USAİD-in Missiya Direktoru Cey Sinq (Jay Singh) USAİD mövcud əməkdaşlıq çərçivəsində Milli Cəmiyyətə humanitar sahədə hər cür yardım göstərəcəklərini və dəstəkləyəcəklərini bildirmişlər. |
| 22 | 3 noyabr, 2020-ci il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin müraciəti əsasında Türkiyə Qızıl Ay Cəmiyyətinin növbəti 11 yük maşınından (TIR) ibarət humanitar karvanı Azərbaycana göndərilmişdir. | Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri (BQX/QAC) Federasiyasının Avropa zonası üzrə vitse-prezidenti, Türkiyə Qızıl Ay Cəmiyyətinin prezidenti Kərəm Kınık Türkiyədə "Qardaşlara kömək etmək vaxtıdır-Göstər qardaşlığını, Türkiyə" adı ilə kampaniya keçirmiş, qardaş Türkiyə xalqından cəbhəyanı ərazilərdə zərərçəkən və həlak olan insanların ailələrinə zəruri humanitar yardımlar toplanılaraq Azərbaycana göndərilmişdir. |
| 23 | Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qazax rayonunda həyata keçirdiyi layıhələr çərçivəsində, 10 noyabrın 2020-ci il tarixində Qazax rayonu 2-ci Şıxlı kəndində, Litva səfirliyinin dəstəyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən yüksək səviyyədə inşa edilən yeni Təhlükəsiz Oyun Meydançasının təhvil təslim və açılış mərasimini keçirilmişdir. | Yeni Təhlükəsiz Oyun Meydançasının açılış mərasimində məktəbin çox saylı müəllim kollektivi, valideyinlər, kənd icra nümayəndəsi, bir qrup şagird, Qazax rayon AzQAC-nin bölməsinin digər əməkdaşları və könüllüləri iştirak etmişlər. Layihənin məqsədinin sərhədyanı ərazilərdə məktəblilərin daha rahat və təhlükəsiz şəkildə oynaya bilmələri üçün şərait yaratmaq olduğu vurğulanmışdır. |
| 24 | 2020-ci il noyabrın 17-də , Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Qafqaz ölkələri üzrə nümayəndəliyinin başçısı Olga Cumayevanı AzQAC-a səfər etmişdir. | Səfərin məqsədi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin humanitar sahədə donorları AzQAC-ın həyata keçirdiyi layihələrə cəlb etməkdə, həmçinin, xüsusilə də Milli Cəmiyyətin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə, Təchizat və Kommunikasiya sahəsində bilik və bacarıqlarını inkişaf etdirilməsi istiqamətində dəstək göstərilməsi olmuşdur.Görüş zamanı bir sıra |

| | | |
|---|---|---|
| | | məsələlərin o cümlədən gələcək fəaliyyətlərin və görüşlərin müzakirəsindən danışılmışdır. |
| 25 | 2020-ci il noyabrın 19-da AzQAc-ın baş ofisində Hərəkatın dördüncü koordinasiya görüşü keçirilmişdir. | Görüşdə BQXK-nın, BQXQAC Federasiyasının, Türkiyə Qızıl Ay Cəmiyyətinin və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndələri və rəhbər şəxsləri iştirak etmişlər. Görüş zamanı mövcud vəziyyətlə əlaqədar olaraq cəbhəyanı ərazilərdə münaqişədən əziyyət çəkən inanların ehtiyacları dəyərləndirildi. Müzakirələr aparıldı, təkliflər dinlənildi. Yerli bölmələrin fəaliyyətlərinin yoxlanılması və lazımı ehtiyaclar üçün qiymətləndirmə aparılacağı qeyd olunmuşdur. |
| 26 | 07 Dekabr tarixində Beynəlxalq Qızıl Xaç Komitəsinin Asiya və Avropa Regionu Üzrə direktoru Martin Şueep, Nümayəndəliyin rəhbəri Ariana Bauer  və Az QAC-ın İcraçı katibi Ceyhun Mirzəyev və müavini Şaban Şayevin iştirakı ilə görüş keçirilmişdir. | Görüşdə Dağlıq Qarabağ konflikti zamanı Cəmiyyətin məhsuldar fəaliyyəti, ehtiyaclı insanlara vacib yardımların göstərlməsində cəmiyyətin məhsuldar rolu müzakirə olunmuşdur. Həmçinin gələcək fəaliyyətlərdə və planlaşdırmada BQXK-i ilə Milli Cəmiyyət arasında əlaqələrin genişləndirilməsi ətraflı şəkildə müzakirə olunmuşdur. |

## Axtarış Xidməti

**Məqsəd.**

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik ğöstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazimi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmcinin bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Fəaliyyət**

- Mütəmadi olaraq ərizəçilərin qəbulu keçirilir:
- II Dünya müharibəsi zamanı itğin düşənlərin axtarışı
- Migrasiya ilə bağlı axtarış
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi.
- Sosial problemlərin həlli üçün sənədlərin axtarışı.
- AX-nin fəaliyyəti barədə RM və RB-ri vasitəsilə yayımı.

**Dövlət strukturları ilə əməkdaşlıq**

- Az.QAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

1) Daxili İşlər Nazirliyi
2) Dövlət Təhlükəsizliyi Nazirliyi
3) Nazirlər Kabineti nəznində Dövlət Arxiv İdarəsi
4) Bakı İcra Hakimiyyəti
5) Respublika Prokurorluğu
6) Hərbi Komissarlıq
7) Qaçqınlar üzrə Ali Komissarlıq
8) Qaçqın və Məcburi köçkünlər üzrə dövlət Komitəsi
9) Telefon – məlumat xidməti
və sair dövlət təşkilatları. (təhsil, kecmiş iş yerləri və s.)

**Görüşlər.**

İl ərzində mütəmadi olaraq BQXK-nin axtarış üzrə nümayəndələri ilə görüşlər keçirilmişdir.
Fövqəladə Hallara hazırlıq, Fövqəladə Hallar zamanı və Fövqəladə Hallardan sonra Axtarış Xidmətinin fəaliyyəti mövzusunda cəbha xətti və Fövqəladə Hallararın baş verməsi ulə əlaqədər risk altında olan rayon bölmələrinin sədrləri üçün təlim keçirilişdir.

Fəaliyyətimiz

İl ərzində AzQAC-ın Axtarış xidmətinə müraciət edən 5 nəfər- İraq və Suriya itginlərinin yaxınlarına axtarışla bağlı məsləhətlər verilmişdir.

Regional Mərkəzlər / rayon bölmələri

İl ərzində Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə Regional Mərkəzlərinin sədrləri ilə dəfələrlə görüşlər keçirilmiş, sorğu blankları mütəmadi olaraq paylanılmışdır. Həmçinin, bir çox rayon bölmələrinin sədrləri ilə axtarış işlərilə bağlı telefon əlaqəsi yaradılmış, məsləhətlər verilmişdir.

Statistik hesabat

2020-cı il ərzində daxil olmuş sorğular:

**Acılmış işlər: 18**

Azərbaycan daxili - 6
Miqrasiya ilə bağlı axtarış 4
Sosial axtarış 2
**Cəmi: 6**

Ölkə hüdudlarından kənarda - 2
Miqrasiya ilə bağlı axtarış 1

Miqrasiya ilə bağlı axtarış (sənədlərin axtarışı )	1
**Cəmi:	2**

2020-ci il ərzində bağlanmış işlər - 3
Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı	1 müsbət	1 mənfi
Miqrasiyaya dair sənədlərin axtarışı
- 1 mənfi

Cəmi:	1	2

**2-ci Qarabağ müharibəsində axtarış xidmətinə müraciət edənlər:**

- Gələnlər - 15 nəfər
- Zəng edənlər - 115 nəfər
- Məktub göndərənlər - 9 nəfər